*Zəkizadə Seyidmahir Samir oğlu, doktorant,*
*Bakı Biznes Universiteti,*
*Email: seyidmahir.1996@gmail.com*

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRİNDƏ SƏRNİŞİN NƏQLİYYATI İNFRASTRUKTURUNUN YARADILMASI

Nəqliyyat sahəsinin əsas rolu genişlənməkdə olan tələbin təmin edilməsindən və ölkə tərəfindən formalaşdırılmaqda olan sosial-iqtisadi inkişaf islahatlarına əsasən uyğunluq prinsipləri ilə bərabər addımlamasıdır. Dəyişən şərtlər nəqliyyat sahəsinin daima irəli addımlaması üçün önəmli istiqamətlərin təyin edilməsini və bu sahənin inkişafı yönündə ölkə tərəfindən müəyyənləşdirilən əsas vəzifələrin reallaşdırılmasını zəruri edir. Nəqliyyat sisteminin inkişafı və fəaliyyətinin əsas məqsədi nəqliyyat - ilə yanaşı ölkə əhalisinin həyat tərzinin və eyni zamanda iqtisadiyyatının yüksəlişini dəstəkləməkdən ibarətdir. [1]

Azərbaycan Respublikasının işğaldan azad edilmiş Ağdam, Cəbrayıl, Laçın Zəngilan, Qubadlı, Füzuli, Kəlbəcər və Şuşa rayonlarında nəqliyyat infrastrukturunun yenidən qurulması, həm tikinti zamanı, həm də sonrakı illərdə bu rayonların yük və sərnişin daşımalarına olan ehtiyacın təmin edilməsi; bununla da avtomobil nəqliyyatı ilə göstərilən bütün xidmətlərin bərpası əsas prioritetlərdən biridir.

Ermənilərin işğaldan azad edilmiş ərazilərimizdə törətdikləri iyrənc əməllərin nümunələrinə nəqliyyat infrastrukturu sahəsində də şahid oluruq. Əhalinin ərazilərdə yenidən məskunlaşmasını təmin etmək üçün inşa edilməsi zəruri olan qəsəbələrə və kəndlərə, hər rayon üçün ilkin olaraq sərnişindaşıma fəaliyyəti göstərilməsi məqsədi ilə rayon mərkəzlərini böyük qəsəbələrlə və kəndlərlə əlaqələndirən, həmçinin, respublikanın paytaxtı Bakı şəhərini və digər böyük şəhərləri (Sumqayıt, Gəncə, Lənkəran, Mingəçevir, Bərdə, Tərtər və s.) həmin rayonların mərkəzləri ilə birləşdirən müntəzəm şəhərlərarası (rayonlararası) və rayondaxili (şəhərdaxili) sərnişindaşıma marşrutlarının təşkili ərazilərin sosial-iqtisadi inkişafında əsas amillərdən biri olacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə 22 avtonəqliyyat müəssisəsi (bu müəssisələrə məxsus qarajlar, idarə binaları, sexlər, qaraj avadanlıqları, qurğular), 10 avtovağzal və avtostansiya kompleksi, avtonəqliyyat müəssisələrinə məxsus Ağdamda 160, Laçında 70, Füzulidə 60, Cəbrayılda 15, Zəngilanda 40, Şuşada 90, Xocalıda 70, Qubadlıda 50, Xankəndidə 350, Kəlbəcərdə 70, Ağdərədə 30, Xocavənddə 10 ədəd, ümumilikdə 1015 ədəd nəqliyyat vasitəsi talan edilib, yararsız hala gətirilib. Məhv edilən nəqliyyat infrastrukturu və maddi-texniki bazanın dəyəri isə milyonlarla manat həcmində ölçülür. [3]

İşğaldan azad edilən ərazilərdə taksilər ilə sərnişin daşıması, avtobusla sərnişin daşınması və yük daşınması xidmətlərinin göstərilməsi üçün avtomobillərə xidmət etmək məqsədi ilə texniki qulluqların aparılması sahələri, təmir sexləri, avtoyuma məntəqələri, yanacaq doldurma məntəqələri, avtomobillərin istifadəyə yararlı vəziyyətdə saxlanılması üçün sexlər və parkinq sahələri olan avtonəqliyyat təsərrüfatının təşkil edilməsi vacib məsələdir. Bu zaman özəl sektor üçün böyük layihələrin idarə edilməsi və yeni investisiya imkanlarının yaranması məqsədi ilə nəzərdə tutulan işlər dövlət-özəl sektor tərəfdaşlığı layihələrinin tərkib hissəsi kimi reallaşdırılmalıdır. Bunun nəticəsi olaraq özəl sektorda bu sahə ilə əlaqədar təcrübələrin formalaşmasında geniş

inkişaf istiqamətləri formalaşacaq.

Bunun üçün bu sahəyə cavabdeh olan orqanlar tərəfindən təklif olunan yol infrastrukturunun standart tikinti və layihə sənədləri hazırlanmalıdır.

Öz doğma yurdlarına qayıtdıqdan sonra yerli əhali tərəfindən burada həyat yenidən canlanacaq, müntəzəm sərnişin marşrutlarının sayı sərnişin axınına uyğun təkmilləşdiriləcək və zərurət yarandıqda yenidən təşkil ediləcək.

Nəqliyyat sisteminin inkişafı üçün işğaldan azad edilmiş ərazilərdə dövlət proqramının tərtib edilməsi zəruri məsələdir. Bu məsələnin əsas məqsədi aşağıdakılardən ibarətdir:

1. İqtisadiyyatin nəqliyyat xidmətlərinə olan tələbatının təmin edilməsi;
2. Dayaniqli formada nəqliyyat sisteminin yaradılması;
3. Müdafiə ehtiyaclarının təmin olunması;
4. Tranzit potensialının artırılması;
5. Nəqliyyat xərclərinin azaldılması vasitəsi ilə işğaldan azad edilmiş ərazilərdə yüksək inkişafın təmin olunması.

Beləliklə, tərtib edilməsi vacib olan dövlət proqramı aşağıdakı vəzifələrin həyata keçirilməsini təmin edəcəkdir:

– nəqliyyat xidmətləri bazarında rəqabət mühitinin sağlam şəkildə yaradılması, bununla yanaşı tarif sisteminin təkmilləşdirilməsi;

– sərhəd məntəqələri yaxınlığında yerləşən nəqliyyatların müasir tələblərə uyğun şəkildə yeniləşdirilməsinə aid layihələrin həyata keçirilməsi;

– nəqliyyat infrastrukturlarının müasir tələblərə uyğun həyata keçirilməsi;

– nəqliyyatın fəaliyyətinin səmərəliliyinin və eyni zamanda rəqabət qabiliyyətinin artırılması;

– İşğaldan azad edilmiş ərazilərə nəqliyyat vasitələrinin ayrılması;

– işğaldan azad edilmiş ərazilərdə metro xətlərinin və stansiyalarının tikilməsi.

Nəqliyyat sisteminin inkişafına aid dövlət proqramının maliyyələşdirilməsini təmin edən mənbələr aşağıdakılardan ibarətdir:

– dövlət büdcəsi;

– nəqliyyat sisteminə daxil edilən qurumların vəsaitləri;

– kreditlər;

– yerli və xarici sahibkarların investisiyaları.

Nəqliyyat infrastrukturuna özəl sahələrin investisiyasını cəlb etmək üçün önəmli tədbirlərin alınması vacibdir. Bu tədbirlərə [2, 84]:

1. İnvestisiya layihələrinin reallaşdırılması üçün kredit vəsaitlərindən istifadə imkanlarının artırılması;
2. Xarici və yerli investorların əhəmiyyətli layihələrinin maliyyələşdirilməsinə cəlb olunması üçün dövlət zəmanətinin verilməsi;
3. Xarici investorların iştirakı ilə bağlı kapital məqsədli layihələrin maliyyələşdirilməsi üçün köməklik göstərilməsi.

İşğaldan azad edilən ərazilərdə taksilər ilə sərnişin daşıması, avtobusla sərnişin daşınması və yük daşınması xidmətlərinin göstərilməsi üçün avtomobillərə xidmət etmək məqsədi ilə qeyd edilən tədbirlərin həyata keçirilməsi vacib məsələdir:

1. Texniki qulluqların aparılması sahələrinin təşkil edilməsi;
2. Təmir sexlərinin təşkil edilməsi;
3. Avtoyuma məntəqələrinin təşkil edilməsi;

4. Yanacaq doldurma məntəqələrinin təşkil edilməsi;

5. Avtomobillərin istifadəyə yararlı vəziyyətdə saxlanılması üçün sexlərin təşkil edilməsi;

6. Parkinq sahələri olan avtonəqliyyat təsərrüfatının təşkil edilməsi.

Nəqliyyat infrastrukturunun maliyyələşdirilməsi üçün vəsaitlərin cəlb edilməsinin əsas istiqaməti dövlətin özəl sektorla əməkdaşlığıdır. Dövlətin əsas vəzifəsi dövlət-özəl tərəfdaşlığının digər formaları üçün normativ hüquqi bazanın işlənib hazırlanması və həyata keçirilməsi, habelə nəqliyyat sahəsində özəl sektor arasında əməkdaşlığın mühüm istiqamətlərinin müəyyən edilməsidir. Ölkənin akademiya və universitetlərində təhsilin müasir tələblərə uyğunlaşdırılması, nəqliyyat-yol kompleksində çalışan mütəxəssis və menecerlərin ixtisasartırma kurslarının təşkili, multimodal və intermodal daşımaların idarə olunması üçün yeni kadrların təşkili də zəruri məsələdir.

## İstifadə olunmuş ədəbiyyat:


1. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanunu - 22.12.1999.
2. Əmrahov M.İ. Böyük İpək Yolu. Dərslik. Bakı. 2011, 84 səh.
3. https://sputnik.az/20201202/ishqaldan-azad-edilmish-erazilerde-sernishindashima-infrastrukturu-tamamile-mehv-edilib-resmi-425620159.html